# RÜSTƏMOV HİDAYƏT ELDAR OĞLU



19 avqust 1970-ci ildə Ağdam rayonunun Xıdırlı kəndində anadan olmuşdur. Səkkizinci sinfi bitirdikdən sonra təhsilini Ağdam şəhərindəki 50 saylı texniki peşə məktəbində davam etdirmişdir. 1988-90-cı illərdə sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Ermənilərin Azərbaycan torpaqlarına təcavüzə başladığı dövrdə Hidayət Rüstəmov düşmənlə mübarizə aparmaq üçün daxili işlər orqanına müraciət edərək, 1991-ci ildə Ağdam rayon Daxili İşlər Şöbəsinin post patrul alayında işə başlamışdır Meşəli kəndi dörd bir tərəfdən erməni kəndləri ilə əhatə olunmuşdu, zaman-zaman ermənilərin basqınlarına məruz qalır, əhali qorxu, həyacan içərisində yaşayırdı. Belə bir ağır zamanda Ağdam rayon arasında Hidayət də olmaqla polis idarəsinin əməkdaşları kömək məqsədi ilə bu kəndə göndərilir. Dəfələrlə ermənilərin böyük itkilər verərək geri çəkilməsində H. Rüstəmovun xüsusi rolu olmuşdur. 23 dekabr 1991-ci ildə erməni yaraqlılarının Meşəli kəndinə növbəti hücumu oldu. Düşmən tez bir zamanda kəndi mühasirəyə aldı. Dinc əhalini xilas etmək üçün Ağdam rayon DİŞ-nin əməkdaşları döyüşə girdilər. Cəsur polis çavuşu H.Rüstəmov boş evlərin birində özünə mövqe seçdi. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq Hidayət düşmənə gözlənilməz zərbələr endirirdi. Lakin erməni yaraqlıları onun qurduğu istehkamı yardılar. Quldurlar cəsur döyüşçünün təslim olmadığını görüb, evə od vurdular. O, son damla qanınadək vuruşdu və qəhrəmancasına həlak oldu. Ağdam rayonundakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Rüstəmov Hidayət Eldar oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.